# İKİ ŞAH, İKİ SULTAN

## (romandan parçalar)



*Hüseynbala MİRƏLƏMOV*

***Təkcə Təbrizdə yox, Ağqoyunlu dövlətinin demək olar ki, əsas ərazilərində kiçik münaqişələr nəzərə alınmazsa, dinclik hökm sürürdü. Ağqoyunlularla Osmanlıların savaşı digər sərhəd ölkələrinə də görk olmuşdu. Kimsə cəsarət edib ölkənin sərhədlərini poza bilmirdi. Hər tərəfdə belə fikir hökm sürürdü ki, Ağqoyunlularla savaşa çıxmaq göz görəsi başını itirmək demək idi. Çünki Osmanlılarla bir neçə savaşda Ağqoyunlular iki-üç dəfə artıq olan qüvvələrlə döyüşə bilibsə, kiçik məğlubiyyətlər, Anadolu-Ərzincan ərazilərindən bəzi bölgələrin Osmanlı nəzarətinə keçməsi nəzərə alınmasa, ölkənin sərhədlərinin bütövlüyü də qorunub saxlanmışdı. Qafqazın Cənub ətəklərindən tutmuş, ta İraqa qədər böyük ərazilərə sahib olan Ağqoyunluların idarə üsulu elə idi ki, hər yeri güclü nəzarətdə saxlaya bilirdilər.***

***Ağqoyunlu hökmdarı Həsən şah qonşu ölkələrdə, xüsusilə, Osmanlı və Avropa münasibətlərində baş verən bütün siyasi yenilikləri müntəzəm müşahidə edir. Hakimlərin Ağqoyunlularla dostluq, yaxud ixtilaf yarada biləcək heç bir əmələ yol vermirdi. O, görürdü ki, artıq Osmanlılar Qərbi Avropa ilə kəskinləşmiş münasibətləri müharibə müstəvisinə keçiriblər. Sultan II Mehmet daha Ağqoyunlular üzərinə yürüş etmək halında deyil.***

***Əslində, bu vəziyyət Uzun Həsəni sevindirirdi. O, ölkənin təsərrüfat həyatını dirçəltmək, adamların güzəranını yaxşılaşdırmaq planlarını həyata keçirməyə başlamışdı. Özü yaxşı bilirdi ki, ölkənin iqtisadi həyatı yaxşı olmasa, səltənəti qoruya biləcək güclü ordu da yaratmaq və onu saxlamaq mümkün deyil.***

***Xüsusilə, iri şəhərlər arasında ticarət əlaqələrini genişləndirmək və bununla birgə memarlıq və abadlıq işlərini də istəklərinə uyğun aparmaq üçün bu dincliyin böyük əhəmiyyəti vardır.***

***Təbriz öz görkəmini sürətlə dəyişməkdə idi...***

*(Əvvəli ötən saylarımızda)*

...Şahbəyim baxçada Uzun Həsənlə birgə iri əncir ağacının altına tərəf addımlayırdı. Onlar ağacın yanında dayandılar. Əncir mövsümü idi, amma qocalmış ağac yarpaqlarının xeyli hissəsini vaxtından əvvəl tökmüş, qalan yarpaqlardan da saralanları vardı. Meyvələri də ağacda ara-sıra gözə dəyirdi. Şahbəyim bilirdi ki, şah ənciri xoşlayır. Budaqların arasına diqqət yetirdi. Axır ki, iki iri, bənövşəyi əncir tapdı. Birini hökmdara uzatdı, o birini də özünə saxladı. Hökmdar əvvəlcə əncirin saplağından tutub diqqətlə nəzərdən keçirdi.

- Şahbəyim, yadındadır, bu əncirin göbəyindən necə bal süzülürdü? - Hökmdar fikirli-fikirli əncirə baxmaqda davam elədi.

Şahbəyim ərinin kədərli olduğunu sezdi. Onun könlünü almaq istədi. Yanından keçib ön tərəfində dayandı. Hökmdar xanımının ona belə diqqətlə baxdığını görüb yarı könülsüz gülümsündü.

- Hə, qurbanın olum, doğrudur, bir vaxt elə idi. Əncir də insan kimidir. Bir vaxt gəlir ki, əvvəlki görkəmini itirir. Gövdə qocalır, budaqlara qədərincə şirə verə bilmir.

Hökmdar Şahbəyimin ağıllı danışığından xoşlandı. Təbəssümü bir az da artdı. Amma bu təbəssüm onun kədərini üzündən tamam silib aparmadı. Handanhana hökmdar sevimli xatununun sözlərini cavabsız qoymamaq üçün dilə gəldi.

- Hə, elədir, elə bizim kimi. - Hökmdar sözünü dedi, sonra ənciri ağzına uzatdı. Yedi, sanki əncirin dadının da dəyişdiyini Şahbəyimə bildirmək istədi:

- Deyəsən, dadı da dəyişib.

- Əlbəttə, elə olar, - istədi ki, əlindəki ənciri də hökmdara versin.

- Yox, yox, istəmirəm, onu da sən ye, dadına bax.

- Hə əzizim, dadı da dəyişib, mən də elə hiss elədim. - Şahbəyim cavab üçün ərini çox gözlətmədi.

- Bəli, qocalığın bir əlaməti də budur. Hökmdar əncirin gövdəsinə yaxınlaşdı. Şahbəyim də onunla birgə irəlilədi. Bu vaxt Şahbəyimin birdən-birə əhvalı yaxşılaşdı. Əvvəl gülümsündü, sonra da güldü. Sağ əlini əncirin dibinə uzadıb, ərinə göstərdi:

- Bir bax, qurbanın olum...

- Nəyi deyirsən? - hökmdar soruşdu.

Şahbəyim dönüb ərinin nəzərlərini əncirin dibindən qalxan təzə pöhrələrə tərəf yönəltdi:

- Heç qəm eləməyə dəyməz, görürsənmi, əncirin dibindən necə pöhrələr qalxır. Çox keçməz bu pöhrələr qalxıb gövdəni əvəz eləyər. Yenə dadını-tamını özünə qaytarar.

Həsən şah razılıqla başını tərpətdi. Əvvəlcə əncirin dibindən qalxan pöhrələrin yaşıl yarpaqları, sağlam çubuqları onun ruhuna xoş duyğular gətirdi. Sonra da arvadının ağıllı müşahidəsi könlünü qədərincə açdı.

Asta-asta irəlilədilər. Sarayın baxçaya açılan qapısının ağzında dayandılar. Burada yaxşı bir kölgəlik var idi. Kürsülər qoyulmuşdu. Hər ikisi yan-yana əyləşdi. Şahbəyim ərinin düşüncələrinə mane olmamaq üçün dinmirdi, sakit-sakit üzü baxçaya tərəf baxır, budaqlarda teztez yerini dəyişən quşların cikkiltisinə diqqət yetirirdi. Amma fikri hökmdarın yanında idi. Əslində, elə həmin mənzərəni hökmdar da görürdü. Onlar beləcə xeyli sakit əyləşdilər. Birdən Şahbəyimin yadına düşdü ki, hökmdar mərkəzi meydandakı Nəsriyyə məscidinin tikintisinə baxmağa gedəcək. Düşündü ki, bəlkə, hökmdarın yadından çıxıb. Bir qədər ehtiyatla bu barədə söhbət salmaq istədi.

- Hökmdar, Nəsriyyənin işləri nə yerdədir?

Uzun Həsən səksənən kimi oldu. Axı arvadı ona ikilikdə olanda heç vaxt hökmdar deyə müraciət eləmirdi.

- Hə qurbanın olum, niyə təəccüblənirsən? Bilmirsənmi ki, dövləti işlərə aid olan hər hansı bir məsələdə hökm sahibi hökmdardır. Mən də elə ona görə müraciət etdim.

Hökmdar lap xoşhallandı. Birdən əlini-əlinə vurub güldü.

- Sən ağıllı qadınsan. Lap anam Sara xatunsayağı düşünürsən.

Bu sözlər də Şahbəyimin xoşuna gəldi. Bilirdi ki, hökmdar anasının xatirini çox əziz tutur. Əgər onu anasına bənzədirsə, demək, Şahbəyimin də xatirini əziz tutur. Həqiqətən, Şahbəyim ərindən çox razı idi. Uzun Həsən bütün evlilik illərində Şaybəyimin mərtəbəsini həmişə uca tutmuşdu. Onu incidəcək bir əmələ heç vaxt yol verməməyə çalışmışdı. Bunun bir səbəbi də Şahbəyimin Sara xatuna - onun ölümünə qədər doğma yanaşması olmuşdusa, digər səbəbi də hökmdarla heç vaxt iddialı danışmaması, onu zaman-zaman sevgi ilə oxşaması olmuşdu. Hətta Uzun Həsən oğlanları ilə savaşda belə övlad qanı tökməyə məcbur olanda da Şahbəyim onun xatirinə dəyməmiş, dərdinə şərik olmağa çalışmışdı. Bütün bunlar vaxtından tez qocalmaqda olan Uzun Həsənin yaddaşında xoş bir əhvala çevrilmişdi. Hətta bir dəfə aralarında oğlunun döyüş meydanında öldürülməsindən sonra bir söhbət də olmuşdu. Şahbəyim intizarla gözləri qan-yaş dolu bir halda ərinin qabağına çıxıb əvvəlcə əllərindən öpmüş, sonra da başını onun sinəsinə qoyub hönkür-hönkür ağlamışdı. Hökmdar isə ana kədərinə şərikliklə dillənmiş, demişdi:

- Ağlama, Şahbəyim, bilirəm, mən sənə dərd gətirmişəm.

Şahbəyim isə hönkürtüsünü güclə saxlayıb, azca başını qaldırıb hökmdarın gözlərindəki kədərə şərik çıxdığını belə bildirmişdi:

- Yox, hökmdar, sən mənim başımın tacısan. Sən o tacı sağ-salamat qaytarmısan. Elə bu da mənə bəsdir. Əgər başımın tacı olmasaydı, onda mənim yaşamağımın nə dəyəri olardı?

Bu əhvalatdan sonra uzun müddət Uzun Həsən öz hücrəsində tək qalmış, kimsəni qəbul eləməmişdi. Tökülüb qalmış divan işlərinin intizarında olan cavabdehlər hökmdarı hücrəsindən çıxara biləcək bir kimsə kimi yenə Şahbəyimə üz tutmuşdular. Onda da Şaybəyim hökmdarı divana gətirəcək tək şəxs olmuşdu.

- Hökmdar, nəvələrin var, səltənəti salamat saxlamaq sənin borcundu, - deyib onun əlindən tutmuşdu.

O vaxt Uzun Həsən ona hökmdar deyə müraciət edən xanımına diqqətlə baxanda, Şahbəyim bu nəzərlərin anlamını anlamış və demişdi:

- Bəli, hökmdar, biz indi özümüzün deyilik, biz gələcək nəsillərə məxsusuq. Bu gün səltənət istəyir ki, hökmdar yenə öz yerində olsun.

Deyəsən, bu əhvalatdan dörd ildən də artıq il keçmişdi. İllər sürətlə keçib getsə də, yaralar asanlıqla sağalmırdı. Uzun Həsən Nəsriyyə məcsidinin tikintisində işlərin sona çatmasını səbirsizliklə gözləyirdi. Deyəsən, işlər də bu günlərdə başa çatmaqdaydı.

- Hə, Şahbəyim, mən bu gün Nəsriyyəyə getməliyəm. Görüm orada işlər necə tamamlanır.

- Hə, hökmdar, Allah işini avand eləsin, indi orada səni gözləyirlər.

Hökmdar ayağa qalxıb sarayın həyətinə keçdi. Orada mühafizlər gözləyirdilər.

...Hökmdar Nəsriyyə məcsid-mədrəsəsini yaxşı-yaxşı gəzdi. Xırda düzəlişlər və kiçik əlavələr üçün göstərişlər verdi. Nəsriyyədən çıxıb Qeysəriyəyə tərəf getdi. Çoxdan tikilib istifadəyə verilmiş məşhur bazarda şıdırğı alver gedirdi. Adamların qayğısızlığı, gündəlik güzəranları ilə məşğul olmaları onu sevindirirdi.

...Beləcə, yay qurtardı. Hiss edilmədən payız da ötüb keçdi. Uzun Həsən divana gec-gec gəlirdi. Çox zəifləmişdi. Ancaq mühüm məsələlərin həlli ilə bağlı yalnız divanbəyinin görüşünə icazə verirdi.

...Böyük çillədən on iki gün keç-mişdi. Uzun Həsənin əhvalı birdən-birə dəyişdi. Əslində, bu, birdən-birə dəyişmə deyildi. Müharibələrdə, münaqişələrdə oğlanlarını itirmiş, sarsıntılar keçirmiş, Otluqbeli savaşındakı məğlubiyyət və əsas da oğlanları arasındakı ixtilaflar onu sarsıtmış, əldən salmışdı.

Uzun Həsən ruhən güclü adam idi. Keçmiş dözümünü yada salanda, istər-istəməz hazırkı zəifliyinə acıyırdı. Birdən qəzəblə yerindən qalxdı, sanki bütün ağır düşüncələri və ruhunu sarmış dərdləri, ağrıları bütünlüklə özündən kənara atmaq istədi. Əvvəlcə ayaq üstə düz, sərrast dayandı. Gücünü toparlamışdı, amma birdən-birə başı dumanlandı. Gözlərinə qaranlıq çökdü. Ayaqları titrəməyə başladı. Daha özünü saxlaya bilməyib, təzədən yıxıldı. Sonuncu anda özünü yatağına tərəf yönəldə bildi.

...Böyük çillədən on yeddi gün ötmüş Uzun Həsən sonuncu dəfə nəfəs aldı. Onun iki əlindən də Şahbəyim tutmuşdu.

Şahbəyim hiss elədi ki, ərinin əlləri boşaldı. Onun əllərini qaytarıb sinəsi üstünə qoydu. Sağ əlini uzadıb, onun göz qapaqlarını aşağı sığadı. Beləcə, hökmdar qurduğu böyük dövləti, bir-biri ilə yola gedəcəklərinə inanmadığı oğlanlarına verib əbədiyyət evinə köçdü.

Uzun Həsəni Nəsriyyə məcsidində dəfn etdilər. Yaratdığı Ağqoyunlu dövləti daha bir çovğunlu, küləkli gecəni gözləyirdi.

***SON***